# Vətəndaş qəbulu



Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən növbəti dəfə vətəndaşların qəbulu keçirilib. Qəbulda Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin, eləcə də digər vətəndaşların müraciətləri dinlənilmişdir. Onların irəli sürdükləri təkliflərin, qaldırılan məsələlərin bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Şəhid valideyinləri və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

# Rayon vətəndaşları ilə görüş



Azərbaycan Respublikası Elm və Təhsil nazirinin müavini Kənan Kərimzadə Qəbələ şəhər Zarağan kənd 1 saylı tam orta məktəbdə Qəbələ, Şəki, Zaqatala, Balakən, Qax və Oğuz rayonlarından olan vətəndaşlarla görüşüb. Öncə Elm və Təhsil nazirinin müavini Kənan Kərimzadə və Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev şəhərin mərkəzində yerləşən Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Qəbul zamanı vətəndaşların müraciətlərinin bir çoxu yerindəcə öz həllini tapmış, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə aidiyyəti üzrə tapşırıqlar verilmişdir. Daha sonra 19 sentyabr 2023-cü il tarixdə lokal antiterror əməliyyatı zamanı şəhid olmuş Qəbələ rayonu Mirzəbəyli kənd sakini, Azərbaycan Silahlı Qüvvələrinin mayoru Xəyyam Səmədovun övladları və şəhid Məhəmməd Qarayevin anası, texnologiya müəllimi Könül Qarayeva ilə görüş keçirilmiş, şəhidlərimizin xatirəsi yad edilmişdir. Nazir müavini Kənan Kərimzadə Qəbələ rayonunda udilərin məskunlaşdığı Nic qəsəbəsində yerləşən Nic qəsəbə 1 nömrəli tam orta məktəbin yeni tikilmiş binasına baxış keçirib, müəllim və şagirdlərlə görüşmüşdür.

# XII Azərbaycan-Rusiya Regionlararası Forumu



Rusiyanın Stavropol diyarının Mineralnıye Vodı şəhərində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin və Rusiyanın İqtisadi İnkişaf Nazirliyinin təşkilatçılığı ilə XII Azərbaycan-Rusiya Regionlararası Forumu keçirilib. Forumda Azərbaycandan olan nümayəndə heyətinin tərkibində Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev də iştirak etmişdir. Azərbaycan və Rusiya tərəfdən dövlət qurumlarının, parlamentlərin, icra hakimiyyəti orqanlarının nümayəndələri, iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarlar və media nümayəndələrinin iştirak etdiyi Forumda Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlığa dair sənədlər imzalanıb. Öncə Azərbaycan və Rusiya prezidentləri İlham Əliyev və Vladimir Putinin forum iştirakçılarına müraciətləri oxunub. Azərbaycan Respublikası Baş nazirinin müavini, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının həmsədri Şahin Mustafayevin, Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçukun, Rusiya Federal Məclisinin, Azərbaycan Respublikası Milli Məclisinin nümayəndələrinin və digərlərinin çıxışlarında iki ölkə arasında imzalanmış “Əməkdaşlığın əsas istiqamətlərinin inkişafı üzrə Yol Xəritəsi”nin ticarət-iqtisadi və investisiya qoyuluşu, nəqliyyat, sənaye, aqrar, enerji, turizm, humanitar və sosial, həmçinin innovasiya və informasiya texnologiyaları sahələrində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı konkret addımların atılmasında önəmli rol oynayacağı qeyd edilmişdir. Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxış edərək, keçirilmiş Forumun iki qonşu dövlət, eləcə də Qəbələ Rayon İcra Hakimiyyəti ilə Rusiya Federasiyası Stavropol vilayəti Kislovodsk - kurort şəhəri Administrasiyası arasında imzalanmış əməkdaşlıq və qardaşlıq münasibətləri haqqında Sazişə əsasən iki şəhər arasında tərəfdaşlığın daha da genişləndirilməsi üçün yeni perspektivlər açacağını, hər iki ölkənin regionları arasında əlaqələri və səmərəli əməkdaşlığı gücləndirəcəyini, Rusiya-Azərbaycan dostluğunun yüksək səviyyədə tərəqqisinə öz töhfəsini verəcəyini bildirmişdir. Forum çərçivəsində iki ölkə arasında birgə layihələrin həyata keçirilməsi, regionlararası əməkdaşlığın dərinləşdirilməsi potensialı və başqa aktual məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

# Müraciətlər dinlənilib



29 mart 2024-cü il tarixdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən növbəti dəfə vətəndaşların qəbulu keçirilib. Qəbulda Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin, eləcə də digər vətəndaşların müraciətləri dinlənilmişdir. İrəli sürülən təkliflərin, qaldırılan məsələlərin bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Şəhid valideyinləri və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

# Səyyar qəbullar


Kiçik Pirəli kəndi.



Yaşanılan ömür daima müəyyən problemlərlə dolu olur. Həyat mübarizədir və insan yaşadığı dövrdə isə onları həll etmək üçün mübarizə aparır. Bəzən elə problemlərlə qarşılaşır ki, onun həlli tək özünün mübarizəsi ilə həll oluna bilmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.


Vəndam qəsəbəsi.


Topbağ kəndi.


Böyük Əmili kəndi.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin mart ayında səyyar qəbullar Vəndam qəsəbəsi, Kiçik Pirəli, Topbağ və Böyük Əmili kəndlərində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılmışdır. Səyyar qəbullar zamanı kənd sakinləri tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

**“Qəbələ”.**
**Fotolar S. Umuyevindir.**